# Dostluq əlaqələri parlamentlərarası müstəvidə uğurla davam edir

Oktyabrın 30-da Milli Məclisin deputatı, Tacikistanla parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun rəhbəri Aydın Mirzəzadə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının Azərbaycanla dostluq və əməkdaşlıq qrupunun rəhbəri Azizzoda Qayratın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Aydın Mirzəzadə konfransda iştiraklarına görə qonaqlara təşəkkürünü bildirərək Tacikistan və Azərbaycan arasında tarixən formalaşmış dostluq və qardaşlıq münasibətlərinin bu gün parlamentlərarası müstəvidə də uğurla davam etdirildiyini söyləyib.

Bildirilib ki, dövlət başçılarımızın mütəmadi rəsmi səfərləri iki ölkə arasında münasibətlərin möhkəmlənməsinə xüsusi töhfə verir. Bu səfərlər siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın inkişafına stimul yaradır və Azərbaycan-Tacikistan əlaqələrinin daha da genişlənməsinə imkan açır.



Görüşdə Azizzoda Qayrat Milli Məclisdə keçirilən tədbirin yüksək səviyyədə və səmərəli təşkil olunduğunu söyləyib. O vurğulayıb ki, bu gün dövlətlərimiz arasında mədəniyyət, elm və iqtisadiyyat sahələrində yüksəksəviyyəli və möhkəm münasibətlər mövcuddur.

Söhbət zamanı Tacikistanla parlamentlərarası İşçi Qrupunun üzvləri Xanlar Fətiyev və Azər Badamov çıxış edərək parlament diplomatiyasının dövlətlərarası əlaqələrin inkişafına öz töhfəsini verdiyini və bu dostluğun və əməkdaşlığın xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırdığını söyləyiblər.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 31 oktyabr (№ 233).- S.2.